


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

2 fevral 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 5 (3619)


# PREZİDENT İLHAM ƏLİYEVİN YÜKSƏK LİDERLİK KEYFİYYƏTLƏRİ QLOBAL MİQYASDA TANINIR

Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri sadəcə, iki dost dövlət arasındakı münasibətlərin inkişafına xidmət edən razılaşmalarla yekunlaşmadı. Gündəliyə malik olan əlaqələrin strateji məzmununu yeni mərhələyə yüksəltdi. Belə ki, buna qədər münasibətləri strateji tərəfdaşlıq kimi müəyyən edən tərəflər bu dəfə əməkdaşlığımızın strateji mahiyyətini təsdiqləyən növbəti bir sənədə imza atdılar.

Dövlətimizin başçısının Macarıstana rəsmi səfərinin ən yaddaqalan məqamlarından biri Baş nazir Viktor Orbanın "Macarıstan 2010-cu ildə çox mühüm bir qərar qəbul etdi. Biz strateji tərəfdaşları harada tapa biləcəyimizi müəyyən etmək üçün dünyaya nəzər saldıq. Biz təkcə maliyyə maraqları deyil, daha möhkəm dostluq axtarışındaydıq. Çünki NATO, Avropa İttifaqı - bunlar gözəl şeylərdir. Amma onlar artıq o gözəlliyini itirib. Biz 2010-cu ildə dedik ki, biz tək özümüzə arxalana bilmərik. Biz bu qərarı verdik, gəlin Azərbaycana tərəf gedək" sözləri oldu. Bu Azərbaycanın beynəlxalq münasibətlər müstəvisindəki roluna və yerinə verilən yüksək dəyərin təcəssümü idi.

Tarixinin ən qüdrətli mərhələsini yaşayan Azərbaycan regionda və dünyada söz sahibi olan dövlət kimi tanınır, qlobal miqyasda enerji təhlükəsizliyinə böyük töhfələr verir. Azərbaycanla Aİ arasında enerji sahəsində genişlənən əməkdaşlığı, 2027-ci ilə qədər ölkəmizdən Avropaya qaz ixracının iki dəfə artırılmasının nəzərdə tutulması bunu deməyə əsas verir.



Görüşdə ötən ilin dekabrında Ruminiyada "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında imzalanan yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş"ə diqqət çəkən Prezident İlham Əliyev yaxın gələcəkdə Azərbaycanın Macarıstana həm də elektrik enerjisi ixrac edəcəyini vurğulayıb. Qeyd edib ki, Macarıstan rəhbərliyinin "Azərbaycana tərəf gedək" qərarı vaxtında verilən düzgün və müdrik addımdır.

Bu gün Prezident İlham Əliyevin adı dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir sırada çəkilir. Böyük dövlətlərin rəhbərləri İlham Əliyevə ehtiram və rəğbətlə yanaşırlar. Ölkəmizin rəhbərinə müxtəlif vaxtlarda, əlamətdar günlərdə ünvanlanan məktublar, keçirilən görüşlərdə səslənən fikirlər bunu təsdiq edir. Bunun səbəbləri İlham Əliyevin yüksək şəxsi keyfiyyətləri, dövlət başçısı kimi həyata keçirdiyi siyasətin məzmunu, qlobal gündəlikdəki məsələlərlə bağlı baxışları, problemlərin həllinə töhfələridir.

Macarıstanın Baş naziri Viktor Orbanın da söylədiyi fikirlər Prezident İlham Əliyevə beynəlxalq səviyyədə olan yüksək ehtiramın ən gözəl nümunəsidir: "Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm".

Xatırladaq ki, bir müddət əvvəl Serbiya Prezidenti Aleksandar Vuçiç də İlham Əliyevlə bağlı oxşar məzmunda fikirlər söyləmişdi.

Səfər zamanı iki dövlət arasındakı əlaqələrin inkişafına xidmət edən vacib sənədlər də imzalandı. Prezident İlham Əliyev və Baş nazir Viktor Orban Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzalamaqla strateji tərəfdaşlıqda yeni mərhələnin əsasını qoydular. Bütün bunlarla yanaşı bu səfər Azərbaycanın və Prezident İlham Əliyevin beynəlxalq miqyasdakı nüfuzunun bir daha təsdiqi oldu.

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 31-də Səbuhi Zəhmət oğlu Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı fevralın 1-də Türkiyə Respublikasının milli təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edib.*

## VƏTƏNDAŞ QƏBULU

Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl



**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il fevral ayının 16-da Cəlilabad Rayon Polis Şöbəsinin inzibati binasında Neftçala, Biləsuvar, Cəbrayıl və Cəlilabad şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.**

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 15.02.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# 2 FEVRAL AZƏRBAYCANDA GƏNCLƏR GÜNÜDÜR

1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılmasından, 1996-cı il 2 fevral tarixində isə məhz ulu öndər Heydər Əliyevin dəstəyi ilə gənclərin 1-ci forumunun keçirilməsindən sonra Azərbaycanda dövlət gənclər siyasətinin əsası qoyuldu. 1997-ci ildən 2 fevralın ölkəmizdə Gənclər Günü kimi qeyd olunması Azərbaycan gəncliyinə olan sevginin, inamın və etibarın bariz nümunəsi idi.

Əsası ulu öndər tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti, Müzəffər Ali baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət




Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" sərəncam, 2007-ci ilin "Gənclər ili" elan edilməsi, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramı, 2011-ci il tarixində Azərbaycan Prezidenti yanında Gənclər Fondunun yaradılması, ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi dövlətin gənclərə verdiyi önəmin ifadəsi olmaqla yanaşı, həm də Azərbaycan gəncliyinin gələcəkdə daha böyük qələbələrə imza atmasına təkan verir.

# HƏYATIMIZ ƏMİN ƏLLƏRDƏDİR

## Həyat əhəmiyyətli obyektlərin mühafizəsi peşəkarlara əmanətdir

Ölkəmizdə həyat əhəmiyyətli obyektlərin, su ehtiyatlarının – artezian quyularının, su anbarlarının, su kəmərlərinin insan faktorundan qaynaqlana biləcək təhlükələrdən mühafizə edilməsi, sözün əsl mənasında, həyati əhəmiyyət kəsb edir. Sadaladıqlarımızın təhlükəsizliyini isə məhz polis təmin edir.

Bu, istər-istəməz Baş Mühafizə İdarəsinin Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayının hər birimiz üçün müstəsna məna daşıyan xidmətini yada salır. İndiyədək mühafizə olunan obyektlərdə ciddi risklər doğuracaq xoşagəlməz halların baş verməməsi, buna cəhd edənlərin isə vaxtında aşkar edilərək təhlükənin aradan qaldırılması öz-özlüyündə Alayın fəaliyyətinə güzgü tutur.

Məlumat üçün qeyd edək ki, "Azərsu" ASC-nin Bakı Şollar-1, Bakı Şollar-2, Oğuz-Qəbələ rayonlarında yerləşən artezian quyuları, Meliorasiya Su Təsərrüfatı ASC-yə məxsus Şabran rayonundakı Taxta-körpü su anbarı və su kəmərləri, Hacıqabul-Bakı Su Kəməri, habelə Bakı şəhərində yerləşən 26 içməli su anbarı və nasosxanalar Alayın əməkdaşları tərəfindən mühafizə olunur. Ötən ilin nəticələrinə görə, bu obyektlərin qorunması üçün 143 postda xdmət təşkil edilib. Bütövlükdə isə 497 hektar ərazidə su anbarları və nasosxanalar, 781 hektar ərazidə artezian quyuları, 394 hektar ərazidə yerləşən su mənbəyi, 636 kilometr uzunluğunda su kəmərləri mühafizə olunur.



Qarabağın azad edilməsindən sonra gur çayların, su anbarlarının da düşmən əsarətindən xilas edilməsi ölkəmizi yenidən öz ehtiyatlarına qovuşdurdu. Çox güman, hazırda sürətli yenidənqurma və bərpa prosesi keçən azad edilmiş torpaqlarımıza Böyük Qayıdış başlayarkən həyat əhəmiyyətli obyektlərin mühafizəsi də öz həllini tapmış olacaq. Azərbaycan Polisinin müharibədən dərhal sonra Qarabağda təhlükəsizliyin təmin edilməsinə cəlb edilməsi bu prosesin hələ o vaxtdan başladığını göstərirdi.

Alayın ötənilki fəaliyyətinə qayıdaraq qeyd edək ki, həmkarlarımız mühafizə işi ilə yanaşı, ictimai asayişin qorunmasında da yaxından iştirak etməklə, ölkə ərazisində ümumi sabitliyin davamlı olmasına töhfə veriblər. Belə ki, Alay əməkdaşları tərəfindən 1 fakt üzrə qanunsuz saxlanılan silah-sursat aşkar edilib, 2 oğurluq və 10 yanğın hadisəsinin qarşısı vaxtında alınıb. İctimai qaydanı pozan 120 nəfər isə saxlanılaraq ərazi polis orqanlarına təhvil verilib.






Hesabat dövrü ərzində əməkdaşlara və dövlət orqanlarına ödəniləcək vəsaitlərin vaxtında ödənilməsi Alayın maliyyə imkanlarının qaydasında olduğunu, rentabelliyin gözlənildiyi, bununla da əməkdaşların sosial rifahının diqqət mərkəzində saxlanıldığını təsdiq edir. DİN və BMİ rəhbərliklərinin göstərişinə uyğun olaraq 14 xidməti postunda əsaslı təmir işləri aparılaraq yenidən istifadəyə verilməsini əməkdaşların xidmət şəraitlərinin yaxşılaşdırılmasının əsas göstəricisi kimi qəbul edə bilərik.

Alayda əməkdaşlar arasında səmimi, işgüzar münasibətlərin mövcud olması isə qənaətbəxş mənəvi-psixoloji durumdan xəbər verir. Talassemiya xəstəliyindən əziyyət çəkənlərə köməklik məqsədi ilə qanvermə aksiyalarında şəxsi heyətin könüllü olaraq iştirak etməsi, Vətən müharibəsinin şəhid ailə üzvlərinə və qazilərə rəhbərlik səviyyəsində maddi-mənəvi dəstəyin göstərilməsi kimi nəcib təşəbbüslər də polisin ali dəyərlərə sadiqliyinin bariz nümunələridir.

*R.Mehtiyev*

# Bizə yazırlar...

Təhlükəsizliyimizin etibarlı qorunmasında daxili işlər orqanları əməkdaşlarının böyük xidmətləri var. Bu gün Azərbaycan Polisi əsl peşəkarlıq nümayiş etdirməklə yanaşı, humanist vətəndaş mövqeyi sərgiləyir. Müraciətlərə həssaslıqla yanaşılması isə polisə olan inamı, etimadı daha da artırır. Operativlik və obyektivlik isə vətəndaş məmnunluğu ilə müşayiət olunur.

"Şərur" MTK-nın Mətbuat xidmətinin rəhbəri Tünzalə İsmayılova DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda da bu fikirlər öz təsdiqini tapır. O, qeyd edir ki, hər hansı bir problem yaranan kimi ilk olaraq yada polis düşür. Dəfələrlə şahidi olmuşuq ki, hər zaman vətəndaşın yanında olan polis əməkdaşları insanların həyatını xilas etmək üçün böyük fədakarlıqlar göstəriblər. Hətta öz həyatlarını riskə atmaqdan belə çəkinməyiblər. İstər asayişin qorunmasında, istər cinayətkarlıqla mübarizədə, istərsə də gündəlik həyatımızda baş verən neqativ halların aradan qaldırılmasında Azərbaycan Polisinin gərgin xidməti fəaliyyəti alqışa layiqdir. Narkomaniyaya qarşı aparılan mübarizə tədbirlərini də yüksək qiymətləndirirəm. Bir vətəndaş olaraq mən də Azərbaycan Polisinin yanındayam".



Başqa bir təşəkkür məktubu isə Xalid Xanmirzə tərəfindən yazılıb: "Azərbaycan Polisi ilə qürur duyuram. Bəzən haqsızlıqlarla üzləşən zaman çarəsiz qalırıq. Əlimiz hər yerdən üzüləndə ümid yerimiz polisdir. Şikayətlərimizə həssaslıqla yanaşılması isə yaramıza məlhəm olur".

Azərbaycan və İsrail vətəndaşı olan Regina Qasımbəyova: "Taksi sifariş etmişdim. Bir neçə dəqiqə gecikdiyim üçün sürücünün mobil telefonda məni kobud ifadələrlə təhqir etməsindən, düzü, sarsıldım. "102" Xidmətizəng Mərkəzinə müraciət etdiyim zaman operativ münasibət bir vətəndaş olaraq mənə təskinlik oldu. **Yasamal RPİ-nin 26-cı Polis Bölməsinin** əməkdaşlarının peşəkarlığı sayəsində isə həmin şəxs tapıldı və məndən üzr istədi. Bir daha əmin oldum ki, təhlükəsizliyimiz etibarlı qorunur. İşlərinin gərginliyinə baxmayaraq, vətəndaşların hər birinə fərdi qaydada göstərilən diqqət və qayğıya görə Azərbaycan Polisinə təşəkkürümü bildirirəm".

Digər bir məktubda isə paytaxt sakini Tural Qaziyev minnətdarlığını belə ifadə edib: "Avtomobilimdən şəxsi əşyalarımın oğurlanması ilə bağlı müraciətimə operativ şəkildə baxıldı. Tez bir zamanda hadisəni törədən şəxsin tapılmasında və əşyalarımı geri qaytarmasında göstərdikləri köməkliyə görə Yasamal RPİ-nin 26-cı Polis Bölməsinin əməkdaşlarına təşəkkürümü bildirirəm. Əminliklə deyirəm ki, bu gün Azərbaycan Polisi həm həyatımızı, həm də malımızı-mülkümüzü cinayətkar qəsdlərdən etibarlı şəkildə qoruyur".

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Narkomaniyanın ağuşunda...

## Polislər azyaşlını ölümün pəncəsindən aldı

Nizami rayonunda azyaşlı uşağın ölümü narkomaniyanın səbəb olduğu ailə faciəsini üzə çıxarıb. Ölüm faktı ilə bağlı prokurorluqda araşdırma aparıldığı bir vaxtda uşağın bibisi dövlət qurumlarına digər azyaşlının da həyatının təhlükədə olması barədə müraciət edib.

Məlumatı dərhal nəzarətə götürən Nizami RPİ rəhbərliyinin göstərişi ilə **24-cü Polis Şöbəsinin YYÇ işləri üzrə inspektorları - polis kapitanı Sənan Həsənov, polis baş leytenantı Xədicə Hüseynova və sahə rəisi, polis mayoru Şamil Rüstəmov** müvafiq dövlət qurumlarının nümayəndələri ilə birlikdə uşağın qaldığı mənzilə baxış keçiriblər. Bu zaman azyaşlının baxımsız vəziyyətdə olması, həyat və sağlamlığına ciddi təhlükə yaranması öz təsdiqini tapsa da, uşağın anası Vüsalə Dövlətova övladını verməkdən qəti imtina edib.

Ananın etirazından sonra Nizami RPİ rəisinin adından Rayon İcra Hakimiyyətinin başçısına, həmçinin Ailə, Qadın və



Uşaq Problemləri üzrə Dövlət Komitəsinə uşağın yaşadığı evdən götürülməsi üçün köməklik göstərilməsi ilə bağlı məktublar ünvanlanıb. Eyni zamanda, 24-cü Polis Şöbəsi tərəfindən ananın narkoloji testdən keçirilməsi də təmin edilib.

Narkoloji testin nəticəsini göstərən akt bütün ailənin, xüsusən uşaqların üzləşdiyi faciənin əsl səbəbini üzə çıxarıb. Ana narkotik istifadəçisi imiş...

Nəhayət bundan sonra polis əməkdaşları Rayon İcra Hakimiyyəti və Sosial Xidmətlər Agentliyinin nümayəndələri ilə birlikdə uşağı ölümün pəncəsindən xilas edib "Ümid Yeri" sığınacağına yerləşdiriblər.

Uşağın vəziyyəti ilə vaxtaşırı olaraq maraqlanan Şöbənin YYÇ işləri üzrə əməkdaşları elə bu günlərdə ona baş çəkiblər.

*"Polis"*

# Təlimlər davam edir



Müdafiə Nazirliyinin Hərbi Polisi və Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi idarələrinin əməkdaşları hərbi hissələrin sürücüləri və maşın başçıları ilə birgə məlumatlandırıcı tədbirləri davam etdirirlər.

Növbəti məlumatlandırıcı dərs Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində baş tutub. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Daha sonra hərbi birləşmələrin sürücülərinin, bu sahəyə cavabdeh olan şəxslərin yol hərəkəti qaydalarına əməl etməsi, hərəkətin təhlükəsizliyinin təmin olunmasına dair ölkə qanunvericiliyi, hərbi hissələrin avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılması, onlardan təyinatı üzrə istifadə edilməsi, yol sənədlərinin düzgün tərtibi mövzularında dərs keçirilib.

Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli hərbi qulluqçulara mürəkkəb şəraitdə yol hərəkəti və təhlükəsizlik qaydaları, həmçinin yol nəqliyyat hadisələri zamanı çevik vərdişlərin formalaşması ilə bağlı nəzəri-praktik məlumatlar verib. Mövzu ilə əlaqəli slaydlar təqdim edilib, yaranmış suallar ətrafında izahlı cavablar verilib.

Tədbirdə aidiyyəti dövlət orqanları, eləcə də yol polisi ilə birgə fəaliyyətin təşkili barədə fikir mübadiləsi də aparılıb.

*"Polis"*

# Şəhidin çempion müəllimi



Dünya idman cameəsinin və rəqiblərinin əsla unutmayacağı idmançıların içində Cumarin Muradovun da adı var.

O, əvvəllər karate ilə məşğul olub. Sonra isə professional döyüşməyə qərar verib, kontakt karate əlbəyaxa döyüşə yaxın olduğu üçün karyerasını bu döyüş üzrə davam etdirməyə başlayıb. Hazırda "Uğur" İdman Klubuna rəhbərlik edir. Azərbaycanı beynəlxalq turnirlərdə qaydasız döyüş üzrə (MMA) yarışlarda təmsil etməklə dəfələrlə dünya çempionu olmuş Cumarin, kikboks üzrə Dünya ikincisi titulunun da sahibidir.

Onu bizim üçün maraqlı müsahib edən başqa bir nüans "paqon" daşımasıdır. 2009-cu ildə daxili işlər orqanlarında xidmətə qəbul olunması ilə asayiş keşikçisi adını qazanan Cumarin Muradov hazırda Qaradağ Rayon Mühafizə İdarəsində manqa komandiri, polis baş serjantıdır.

İdmançı həmkarımız Fransa, İran, Gürcüstan, Türkiyə, Rusiya və başqa ölkələrdə əlbəyaxa döyüş növləri üzrə keçirilən çempionatlardan Vətənə qələbə ilə dönsə də, onu Azərbaycan ictimaiyyəti daha çox 2011-ci ildə Macarıstandakı döyüşündən sonra tanıdı. Həmin il çempionluğunu final döyüşündə erməni idmançısına qalib gəlməklə qazanmışdı.

Beynəlxalq yarışlarda erməni idmançılar üzərində qələbəyə prinsipial məsələ kimi baxan azarkeşlər Cumarini də qəhrəman kimi qəbul edirdi, ancaq, bu qalibiyyət onun özü üçün də az məna daşımırdı. Füzulinin işğalından sonra qaçqın-köçkün həyatı yaşamaq məcburiyyətində qaldığı Qaradağ rayonunundakı Milli Qəhrəman Səxavət Məhərrəmovun adını daşıyan orta məktəb illərindən yığılıb qalan ağrı-acı, bir o qədər də düşmənə nifrət bu qarşılaşmanı onun üçün emosiyasız ötüşdürə bilməzdi.



Cumarinin ermənilərlə yolu bir də 44 günlük Vətən müharibəsində yetirmələrindən biri şəhid olanda "kəsişib".

"Uğur" idman klubunun yetirməsi Bəhruz Əhmədov bizim peşəkar döyüşçülərdən biri idi. Dəfələrlə peşəkar rinqdə çempion olmuşdu. Vətən borcunu yerinə yetirərkən də bizdən çempion kimi ayrıldı",-deyib boğazında düyünlənən qəhəri güclə udur.

Rəhbərlik etdiyi idman klubunun imkanlarından şəhid və qazilərin ailə üzvlərinin ödənişsiz istifadə etmələrinə şərait yaratmaqla həmkarımız illərlə içində yığılıb qalan nisgili, qübarı, itirdiklərinin kədərini canından çıxarmağa, Vətən fədailərinə hörmətini ifadə etməyə çalışır. Bundan sonra da şəhid yaxınlarına, qazilərə imkanlarımız daxilində kömək edəcəyik deyir.

Peşəkar idmanda qazandığı zəngin təcrübənin daxili işlər orqanlarında tətbiqinə gəlincə, qeyd edir ki, əlindən gəldiyi qədər buna səy göstərir.

Baş Mühafizə İdarəsinin komendant xidmətində işlədiyi dövrlərdə əməkdaşlara döyüş fəndlərini, idmanın müəyyən sirrlərini öyrətmək, fiziki hazırlıqlarını yüksəltmək ona həvalə olunmuşdu. Bu gün isə Qaradağ Rayon Mühafizə İdarəsində xidməti vəzifələrini icra etməklə yanaşı şəxsi heyətin fiziki hazırlıq məsələlərinə cavabdehdir. Dəfələrlə olub ki, rayon ərazisindəki qorunan obyektlərdən oğurluğa cəhd edənləri fiziki cəhətdən hazırlıqlı tutucu qruplar yaxalayıblar. Bundan əlavə, ötən il Nazirliyin götürdüyü normativlərdə Qaradağ RMİ paytaxt ərazisindəki polis idarələri arasında ikinci yerə çıxıb. Bu il isə birinci yeri əldə edəcəklərinə inanırlar, çünki həm kollektiv buna can atır, həm də rəhbərliyin göstərdiyi diqqət və qayğı onlara stimul verir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

## AKTUAL MƏSƏLƏ

### Doğum haqqında şəhadətnamə rəsmi sənəddir



Qərbi Azərbaycandan deportasiyaya məruz qalmış azərbaycanlıların tarixi haqlarının bərpa edilməsi zamanın tələbinə çevrilib. Prezident İlham Əliyev yerli televiziya kanallarına son müsahibəsində bu barədə danışarkən qeyd edib ki, Qarabağ problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan atəşə bənzəyə bilərdi. Amma bu gün biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq.

Bu məsələ qərbi azərbaycanlıların tarixi yurd-yuvalarındakı pasport-qeydiyyat məsələsini də aktual edir. Məlum olduğu kimi, Azərbaycan Respublikasının şəxsiyyət vəsiqələri ilə təmin edilərkən vətəndaşlardan köhnə pasportlar alınıb.

DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsindən qəzetimizə bildirilib ki, sovet pasportları şəxsiyyət vəsiqələri ilə əvəz edildikdən sonra öz etibarlılığını itirib və prosedura uyğun olaraq müvafiq qaydada məhv edilib. Doğum haqqında şəhadətnamələr isə vətəndaşların özlərində qalır. İstənilən şəxs, o cümlədən Qərbi azərbaycanlılar doğulduqları yerləri təsdiq etmək üçün doğum haqqında şəhadətnaməni təqdim edə bilərlər.

Mütəxəssislər hesab edir ki, hazırda bu şəhadətnamələr soydaşlarımızın öz torpaqlarına qayıtmasını təmin etmək üçün, eləcə də təzminat məsələlərində beynəlxalq məhkəməyə və qurumlara təqdim olunacaq əsas sənəddir.

Xatırladaq ki, Azərbaycan xalqı ötən əsrdə 4 dəfə deportasiyaya məruz qalıb. Ardıcıl olaraq, 1905, 1918-20, 1948-53, 1988-1991-ci illərdə azərbaycanlılar məcburi şəkildə öz yurdlarından köçürülüb. Təkcə 1988-1991-ci illərin deportasiyasında məcburi köçürülən azərbaycanlıların sayı 250 mini ötür. Bütövlükdə isə 750 mindən çox azərbaycanlı Ermənistan tərəfindən deportasiyaya məruz qalıb.

*"Polis"*

# Polis köməyinə çatmasaydı ...

"Hamilə qadını xəstəxanaya polis maşını ilə çatdırdılar" xəbəri bir çox xəbər saytların manşetinə çevrildi.

Bu yaxınlarda Sumqayıt şəhəri, Sahil küçəsində üzü Novxanı yolunda "My beach" adlanan dairədə Sumqayıt Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin Yol-Patrul Xidmətinin inspektorları, polis baş serjantları Kənan Əliyev və Samil Aslanov dislokasiya üzrə xidmətdə olublar.



Bu vaxt onlara "Toyota Prius" markalı avtomobilin sürücüsü yaxınlaşaraq maşındakı hamilə qadına kömək lazım olduğunu bildirib.

YPX inspektorları vaxt itirmədən aidiyyəti üzrə Sumqayıt Şəhər Polis İdarəsinin Növbətçi Hissəsinə məlumat verdikdən sonra vətəndaşı təcili Sumqayıt şəhəri 2 saylı doğum evinə çatdırıblar.

Doğum evində qadının qız övladı dünyaya gəlib.

Qeyd edək ki, polis baş serjantı S.Aslanov 2006-cı ildən, K.Əliyev isə 2002-ci ildən DİO-da xidmətdədir.

Yeri gəlmişkən, hadisə ilə bağlı suallarımızı cavablandıran Sumqayıt ŞPİ-nin Dövlət Yol Polisi Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Şamxal Əliyev qeyd etdi ki, YPX inspektorları hamilə qadını xəstəxanaya vaxtında çatdırdıqlarına və göstərilən operativ köməkliyə görə rəhbərlik tərəfindən mükafatlandırılacaq.

Məlumat üçün qeyd edək ki, şöbə tərəfindən ötən il sükan arxasına içkili halda əyləşən 1044 sürücü aşkar edilib, 11 nəqliyyat vasitəsini qaçıran şəxslər barəsində cinayət işi açılıb.

# "Zaqreb Open"ə qatıldılar



Xorvatiyada fevralın 1-dən start götürmüş və 5-dək keçiriləcək "Zaqreb Open" turnirində millimizin 31 atleti tatami üzərinə çıxacaq.

Millimizin heyətində yer alan DİN İdman Cəmiyyətinin yetirmələri 50 kiloqramda Türkan Nəsirova, 65 kiloqram çəki dərəcəsində isə Əli Rəhimzadə mübarizə aparacaq.

Yeri gəlmişkən, yarışda 3 qat Avropa və dünya çempionu, IV İslam Həmrəyliyi Oyunlarının gümüş medalçısı Sumqayıt Şəhər Polis İdarəsinin Post-Patrul Xidməti taborunun təlim üzrə baş inspektoru, polis leytenantı Tural Əliyev I kateqoriyalı hakim kimi ədaləti qoruyacaq.

*R.Vəliyev*

# Yeni metodiki vəsait çap edilib




DİO əməkdaşlarının xidməti istifadəsi üçün nəzərdə tutulmuş "Fiziki hazırlıq üzrə metodiki təlim vəsaiti" işıq üzü görüb.

Vəsaitdə fiziki qüvvənin və silahsız özünümüdafiə fəndlərinin tətbiqinin hüquqi əsasları, texniki hərəkətlərin təsnifatı, duruş vəziyyətləri, duruş vəziyyətində yerdəyişmələr, zərbələr və onlardan müdafiə, ekstremal vəziyyətlərdə polis əməkdaşlarının davranış qaydaları, tətbiq olunan fiziki fəndlərin texniki izahı, əməkdaşların psixoloji hazırlığı və sair mövzular fotoşəkillərlə izah edilir.



Yeni nəşr DİN-in İdman Cəmiyyətinin əməkdaşları - silahsız özünümüdafiə üzrə məşqçi-müəllim Rəsul Məmmədov, baş mütəxəssisi Elçin Xudaverdiyev, cüdo üzrə məşqçi-müəllim Emin Məmmədov, kombat ciu-citsu üzrə məşqçi-müəllim Eldar Məmmədov və Fiziki Hazırlıq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənovun müəllifliyi ilə ərsəyə gəlib.

İnanırıq ki, bu vəsait həmkarlarımızın fiziki hazırlıq səviyyələrinin daha da yüksəlməsində mühüm rol oynayacaq.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Vətəndaş məmnunluğu təmin olunub

Paytaxtımızda vətəndaşları narahat edən ən böyük problemlərdən biri tıxac problemidir. Çoxlarımız bu problemin başlıca səbəblərindən biri kimi bəzi məsuliyyətsiz sürücülərin qadağan olunan yerlərdə, xüsusən nəqliyyatın sıx olduğu küçə və prospektlərdə avtomobillərini düzgün, harda və necə gəldi park etməsində görürük.

Paytaxtın bu bir nömrəli problemini aradan qaldırmaq üçün polis aidiyyəti qurumlarla birgə nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə maneə yaradan bu cür halların - qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alır, izahat işləri aparır, reydlər keçirərək həmin pozuntuları törədən nəqliyyat vasitələrini yol hərəkətindən kənarlaşdırır, sürücülər barəsində isə protokollar tərtib edir. Görülən işləri təqdirəlayiq hesab edənlər DİN rəhbərliyinə təşəkkür məktubları ünvanlayır polisə minnətdarlıqlarını ifadə edirlər.

Bakı şəhər sakini Rəşad Məmmədovun təşəkkür məktubu da bu qəbildəndir. O, bir müddət öncə yaşadığı Qaradağ rayonunda yük maşınlarının yolun hərəkət hissəsində saxlayaraq digər nəqliyyat vasitələrinin hərəkətinə mane olması, həmçinin süni əngəllər törətməsi ilə bağlı Qaradağ RPİ Dövlət Yol Polisi Şöbəsinə müraciət ünvanlayıb.

Müəllif müraciətinə dərhal reaksiya verilərək sözügedən halların qarşısının alınmasında, təhlükəsizliyin təmin olunmasında, tıxacların aradan qaldırılmasında, eləcə də sürücülərin rahat, maneəsiz hərəkət etməsində göstərdikləri fədakar xidmətlərə görə Qaradağ RPİ Dövlət Yol Polisi Şöbəsinin rəhbərliyinə və şəxsi heyətinə minnətdarlığını bildirir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə 300 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2023-cü ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2023-cü ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2023-cü il yanvar ayının 23-dən mart ayının 4-dək bazar günləri istisna olmaqla hər gün saat 1000-dan 1700-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə əlavə məlumat veriləcəkdir. Polis Akademiyası haqqında ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 454-12-78,**
**(012) 590-98-16,**
**(012) 590-99-47.**

## 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin bakalavriat səviyyəsinə qiyabi təhsil üzrə qəbul

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi, kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları yanvar - aprel aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

**Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - (012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## 2023/2024-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin magistratura səviyyəsinə əyani təhsil üzrə qəbul

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil üçün hüquqşünaslıq ixtisasının “Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası” ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.

Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün – (imtahanda iştirak etmək üçün) 2023-cü ilin fevral ayının 21-dək əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edə bilər.

Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir.

Magistraturaya qəbul üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

İmtahanda bakalavrlara ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürun) yoxlanılması üçün 50, informatika üzrə 25 və xarici dil üzrə 25 test tapşırığı təqdim olunacaqdır. İmtahanda bakalavrın hər bir test tapşırığına düzgün cavabı bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

**Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - (012) 590-99-47, 19-47 (daxili), Polis Akademiyasının - (012) 454-12-78 və ya 454-13-85 nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.**

## Mükafatlı sual rubrikası

**Yazdığı kitaba görə Buxara əmiri tərəfindən mükafatlandırılıb. Türk, ərəb, fars dillərini mükəmməl bilib, ərəb qrammatikasını, islamşünaslığı, müsəlman paleqrafiyası və epiqrafiyası fənlərini tədris edib. Cümhuriyyətimizin polis orqanlarının təşəkkülündə və inkişaf etdirilməsində müstəsna xidmətləri olub. Söhbət kimdən gedir?**
**Vatsap: +99455-875-16-39**

## Rubrikamızın qalibi




“Mükafatlı sual” rubrikamızda yer alan sualın cavabı tapılıb. Oxucularımıza ulu öndər Heydər Əliyevin göstərişi ilə şair-dramaturq Hüseyn Cavidin cənazəsinin qalıqlarının gətirilərək Naxçıvanda dəfn edilməsi üçün Sibirə yollanan nümayəndə heyətinin tərkibi barədə sual ünvanlamışdıq.

**DİN-in Baş Əməliyyat Statistik İnformasiya İdarəsinin Katibliyinin operatoru, polis kiçik serjantı Jalə Məmmədli** sualımıza cavab olaraq, nümayəndə heyətinin tərkibində Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərovun, Naxçıvan daxili işlər nazirinin müavini Telman Əliyevin və SSRİ-nin deputatı Zakir Nəsirovun olduğunu hamıdan tez vatsap nömrəmizə yazmaqla rubrikamızın qalibi olub. O, bizdən mükafat olaraq Sinan Yağmurun Mövlana haqqında yazdığı "Eşqin göz yaşları" adlı kitabını əldə etdi.

Həmkarımızı təbrik edir və xidməti fəaliyyətində uğurlar arzulayırıq.

## Gümüş medal qazandı



Bu günlərdə Macarıstanın Erd şəhərində sumo üzrə keçirilən "Erd Cup 2023" turnirində 7 idmançı ilə təmsil olunan milli komandamız 3-ü qızıl, 3-ü gümüş və 7-si bürünc olmaqla ümumilikdə 13 medal əldə edib.

Bu yarışda DİN İdman Cəmiyyətinin yetirməsi – DİN-ə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin cinayət-axtarışı üzrə əməliyyat müvəkkili, polis kiçik leytenantı Sadiq Ağamalıyev də gücünü sınayıb. O, böyüklər arasında 115 kiloqramda bürünc, mütləq çəkidə isə gümüş medala layiq görülüb.

Bildirək ki, polis kiçik leytenantı S.Ağamalıyev fevralın 4-də Estoniyanın paytaxtı Tallin şəhərində keçiriləcək Beynəlxalq turnirdə Avropa kuboku uğrunda yarışacaq.

## Dələduzluğun qarşısı alınıb...

**Bakı şəhər sakini Anar Zamanov dələduzluğa məruz qalması ilə bağlı Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsinə müraciət edib.**

Həyata keçirilən əməliyyat-axtarış tədbirlər nəticəsində A.Zamanovun etibarından sui-istifadə edərək ona maddi ziyan vuran şəxsin Orxan Cəlilov olduğu, eləcə də yaşadığı ünvan müəyyənləşdirilib.

Məlum olub ki, zərərçəkmiş torpaq sahəsi almaq üçün təqsirləndirilən şəxslə sövdələşmə aparıb və beh qismində 350 manatı ona təqdim edilən hesaba ödəyib. Bir neçə gün ərzində zərərçəkmiş vəd edilən torpaq sahəsinin sənədlərinin rəsmləşdirilməsi, o cümlədən alqı-satqının sonlandırılması ilə bağlı O.Cəlilovla əlaqə yaratmaq istəsə də buna nail olmayıb.

İdarədən aldığımız məlumata görə, saxlanılan şəxs dindirilmə zamanı əməlini etiraf edib və peşmançılıq hissi keçirdiyini bildirib.

A.Zamanova dəymiş maddi ziyan ödətdirilib, təqsirkar barəsində isə inzibati tənbeh tədbiri görülüb.

◆◆◆

**Dələduzluğun qurbanı olmuş daha bir vətəndaş polisdən razı qalıb.**

Belə ki, Bakı şəhər Nərimanov rayon sakini Gülnar İsmayılova tanışı, vətəndaş Ülviyyə Aslanovanın ondan iş görmək adıyla 200 manat aldığını, bir ay sonra qazancından 600 manat qaytaracağı barədə verdiyi vədə əməl etmədiyi üçün **Nərimanov RPİ 18-ci Polis Şöbəsinə** şikayətçi olub. Zərərçəkmiş izahatında öncədən razılaşdıqları formada sonuncunun bank kartının hesabına sözügedən məbləği yatırdığını, lakin ayın sonunda ona çatacaq 600 manatı deyil, əsas məbləğdən olan 100 manatı verdiyini, digər 100 manatı isə geri qaytarmaqdan boyun qaçırdığını qeyd edib.

18-ci Polis Şöbəsi tərəfindən zərərçəkmişə dəymiş ziyanın ödətdirilməsi təmin olunub, Ü.Aslanovanın əməlinə isə mövcud qanunvericiliyin tələbləri əsasında hüquqi qiymət verilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

## Qaydalara əməl edək

Təhlükəsizlik kəmərləri sürücü, qabaq və arxa oturacaqlarda olan sərnişinlərin hadisə tipindən asılı olaraq 2 dəfədən (ön və yan toqquşma) 5 dəfəyədək (çevrilmə) ölüm riskini azaldır. Bu, həm də qəza baş verəndə və ya qəflətən dayanma zamanı sərnişini saxlamaq üçün nəzərdə tutulan (və ya digər nəqliyyat vasitələri) passiv təhlükəsizlik vasitəsidir. Təhlükəsizlik kəmərinin tətbiqi sərnişinin hərəkətsizliyini təmin edir və müvafiq olaraq nəqliyyat vasitəsinin daxili detalları ilə və ya digər sərnişinlərlə (ikinci zərbə adlandırılan) mümkün toqquşmalarının qarşısını alır, həmçinin, sərnişinin təhlükəsizlik yastığının təhlükəsiz açılmasını təmin edən mövqedə olmasına zəmanət verir.

Avtomobilin arxa oturacaqlarındakı təhlükəsizlik kəmərlərinin həyati əhəmiyyəti ABŞ və Avropada kraş testlər zamanı ortaya çıxıb. Məlum olub ki, 60 kilometr saat sürətlə frontal toqquşma zamanı kəmər arxa oturacaqdakı sərnişini tam qoruyur. Eyni sürətlə toqquşma zamanı arxa oturacaqdakı sərnişin həm özünə, həm də digərlərinə risk mənbəyidir. 70 kilometr saat sürətlə toqquşma zamanı 60 kiloqramlıq sərnişin qabaq oturacağa 1,8 ton zərbə ilə çırpılır. Bu zaman sürücü və qabaqdakı sərnişin üçün ölüm və ya ömürlük şikəstlik qaçılmazdır. Üstəgəl arxadakı kəməri taxmayan sərnişin qəza zamanı alın şüşəsindən, arxa şüşədən və ya pəncərədən yerə düşə bilər.

1990-cı ildən etibarən Avropa ölkələrində arxa oturacaqdakı sərnişin üçün kəmərdən istifadə məcburidir. Bizdə bu qayda 2000-ci illərdən tətbiq edilir. Qanunvericiliyimizdə kəmərdən istifadə etməyən sürücü və ya sərnişin 40 manat məbləğində cərimə olunur.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10000
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik